# FİRİDUN BƏY KÖÇƏRLİ İRSİNİN NƏŞRİNİN TARİXİ MƏRHƏLƏLƏRİ

**Şəhla Qəmbərova,**
F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru
Əməkdar mədəniyyət işçisi
E-mail: *cbs-1968@rambler.ru*



Firidun bəy Köçərli

XIX əsrin sonlarından başlayaraq Azərbaycan türklərinin etnik və mədəni-siyasi qüdrətini, milli varlığını bütün dünyaya tanıtmaq üçün fədakarlığı və ehtirası ilə fəaliyyətə başlayan ziyalı şəxsiyyətlər arasında Firidun Bəy Köçərlinin bənzərsiz siması və böyük xidməti var.

Azərbaycan ədəbiyyatşünaslığının yaradıcısı, ədəbiyyat tarixinin sistemli tədqiqatçısı, təbliğatçısı, publisist, ədəbi əlaqələr mütəxəssisi Firidun Bəy Köçərli maarifpərvər ziyalıların yaxından yardımı və dəstəyi nəticəsində az zaman kəsiyində klassik və müasir ədəbiyyat tarixçiliyinin bir çox ədəbi simalarının həyat və yaradıcılığı, dövrü, ictimai və ədəbi mühiti haqqında zəngin material topladı, onları sistemləşdirdi, XX əsrin əvvəllərindəki çağdaş ədəbiyyat elminin müəyyən prinsip və meyarları ilə elmi təsnifatını verdi. Mübarizədə Firidun Bəy Köçərli tək deyildi; dövrün tanınmış ziyalıları və ədibləri İsmayıl bəy Qaspıralı, Eynəli bəy Sultanov, Ömər Faiq Nemanzadə, Əlimərdan bəy Topçubaşov, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Sultan Məcid Qənizadə, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli və başqaları müntəzəm əlaqə saxlayır, əldə etdikləri ədəbiyyat tarixi materiallarını ona göndərir, söhbətlərində ədəbi irsimizin müxtəlif problemləri ilə bağlı mübahisə aparırdılar. O isə taleyin, tanıdığı ziyalıların yaratdığı şəraitdən yararlanaraq minillik tarixi olan ədəbiyyatın sistemli elmi tarixini yaratmaq zərurətini reallaşdırırdı.

Ədibin gördüyü işlərin miqyasını, gərəkliyini dəyərləndirən Y.V.Çəmənzəminli xatırlayırdı: "Bütün Azərbaycan ədəbiyyatın təsdiq edən təkcə bir ad varsa, o da Firidun bəy Köçərlidir ki, üç cild "Azərbaycan ədəbiyyatı tarixi" meydana gətirib. Bu kitabı şərqşünas bir əcnəbi yazsa idi Avropada elmi ilə böyük ad qazanardı. Görəsən bəs bizim aramızda Firidun Bəy Köçərli cənabları kimi adamların əmələ gəlməsini niyə şux və həvəslə qarşılamırıq".(3)

Firidun Bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixinin bir sıra mərhələləri ilə yanaşı, XIX əsr ədəbi irsinin ilk elmi tarixini yaradıb. Ədib milli ədəbiyyat tarixi ilə bağlı ilk tədqiqatlarına M.F.Axundzadə ilə başlayıb. O, hər şeydən əvvəl, iki əsrin qovşağında M.F.Axundzadənin maarifçi realist sənət konsepsiyasının davamçısı və layiqli varisi kimi meydana çıxmışdı. Bədii yaradıcılıqda müasirliyə, yeni təfəkkür tipinə böyük qiymət verdiyi kimi, ədəbi tənqid və ədəbiyyatşünaslığımızın da bu nöqteyi-nəzəri müdafiə etməsini, həmin sahədə varislik əlaqələrinin, davamlı ənənələrin yaranmasını istəyirdi. Digər tərəfdən ədib üçün zaman kontekstində XIX əsr daha yaxın, daha maraqlı və cəlbedici idi. Həmin dövrün ədəbi şəxsiyyətlərinin bir qismi hələ də yaradıcılığını davam etdirirdi. Eyni zamanda XIX əsr sənətkarlarının qohumları, dostları, yaxın ünsiyyətdə olanlar onunla əlaqə saxlayır, öz xatirələrini söyləyir, əllərində olan ədəbi-tarixi faktları, materialları, böyük həvəslə təqdim edirdilər ki, bu da Firidun Bəy Köçərlinin faktiki olaraq XIX əsr Azərbaycan ədəbiyyatının geniş miqyasda tədqiqini şərtləndirirdi.

Firidun Bəy Köçərli ədəbi-ictimai fəaliyyətə İrəvan gimnaziyasında çalışdığı illərdən başlamış, ilk məqalələri bu dövrdə işıq üzü




görmüşdür. Onun davamçılarından olan F.Hüseynov deyir ki, "XX yuzilin "ilk rübündə realist bədii nəsr, dramaturgiya, inqilabi satira və publisistika sahəsində C.Məmmədquluzadənin, yeni şeir aləmində M.Ə.Sabirin, musiqi mədəniyyəti cəbhəsində Ü.Hacıbəyovun gördüyü iş ədəbiyyatşünaslıq elmində Firidun Bəy Köçərlinin üzərinə düşmüşdür".( 2, s.421)

XIX əsrin 90-cı illərində İrəvan gimnaziyasında müəllimlik etdiyi illərdə Firidun Bəy Köçərli milli ədəbiyyat tarixini yaratmağı qarşısına məqsəd qoymuş, əldə etdiyi materialları "Azərbaycan tatarlarının ədəbiyyatı" (1903) adı altında Tiflisdə rus dilində nəşr etdirməyə nail olmuşdu. Əsər nəşr olunduqdan sonra Azərbaycan ziyalılarının diqqətini çəkmiş, dünyanın müxtəlif ölkələrində təhsil alan həmvətənlərimiz müəllifə məktublar göndərərək bu böyük, fundamental işi davam etdirməyi, ədəbiyyat tariximizin bu ilk nümunəsinin Azərbaycan variantının hazırlanmasını arzulayırdılar. Belə ki, əsər milli ehtiyacı tam ödəmirdi.

Firidun Bəy Köçərlinin yaradıcılığında Azərbaycan ədəbiyyatının müasir durumu, onun tarixi keçmişi ilə vəhdətdə öyrənilib. İrəvan gimnaziyasında çalışarkən o, Azərbaycan-türk ədəbiyyatına dair müxtəlif nümunələri, əlyazma nüsxələrini mətbu əsərləri, şifahi məlumatları toplayaraq tədqiq etməyə başlamış, 25 illik gərgin zəhmətdən sonra 1908-ci ildə üçcildlik məşhur "Azərbaycan ədəbiyyatı" kitabını çap etdirmişdir. Bu kitab Azərbaycan ədəbiyyatı tarixini yaratmaq sahəsində çox mühüm, olduqca əhəmiyyətli bir iş idi; Firidun Bəy Köçərli özünəqədərki "təzkirəçiliyin çərçivəsini dağıdıb ədəbiyyat tarixinin tədqiqinə yeni bir istiqamət vermişdi". (20, s.257) Ancaq kitab hələ ədəbiyyat tarixi deyildi, onun məzmununda və strukturunda Şərq təzkirəçilik ənənələrinin, xüsusilə Lütfəli bəy Azərin "Atəşgədə" kitabının təsiri və əlamətləri aydın görünürdü. Hətta Firidun Bəy Köçərli kitabı hazırlayarkən "Atəşgədə"nin daxili quruluşunu nümunə götürmüş, haqqında bəhs etdiyi şairləri regionlar üzrə düzmüşdü. Kitabın "Bir neçə söz" hissəsində ədib özü yazırdı: "Bu kitabı yazmaqda mərhum Hacı Lütfəli bəy ibn Xaqan "Azəri" təxəllüsün "Atəşgədə" nam kitabında tutduğu qayda və rəvişi intixab etdik, yəni Azərbaycanda olan hər bir bilad və diyarın şüəra və üdəbası haqqında ayrı-ayrı məlumat verməyi münasib bildik". (8, s.69.) Kitabda M.P.Vaqif, M.V.Vidadi, S.Ə.Nəbati, Abdulla bəy Asi, İsmayıl bəy Nakam, Məhəmməd Bağır Xalxali, xüsusilə M.F.Axundzadə, Qasım bəy Zakir, Seyid Əzim Şirvani haqqında oçerklər geniş və əhatəlidir. Bu oçerklərdə haqqında bəhs olunan sənətkarların dövrü, həyatı, ictimai mənşəyi, təhsili, yaşayış tərzi, məşğuliyyəti, müasirləri ilə münasibətləri haqqında ətraflı məlumat verilir, yaradıcılıqlarının əsas istiqaməti müəyyənləşdirilir, çoxlu nümunələr göstərilir. Xaqani, Nizami, Aciz, Salik, Bakıxanovdan bəhs edən hissələr də dolğundur. Həmin hissələr bir tərəfdən fakt zənginliyi və dəqiqliyi, digər tərəfdən məlumatların elmiliyi, qiymətlərin obyektivliyi, sənətkarların yaradıcılığını, onların ədəbi tərəqqidə rolunu Azərbaycan ədəbiyyatının ümumi inkişafı kontekstində, bəzən hətta ümumşərq və ümumdunya bədii fikri kontekstində qiymətləndirməsi baxımından diqqəti çəkir. "Azərbaycan ədəbiyyatı" kitabındakı oçerklərin çoxunda görünən əhatəli təhlil və qiymətləndirmələrin əksinə olaraq, bəzi şairlər haqqında verilən məlumat orta əsrlərin təzkirələri səviyyəsindədir. Fətəli xan Müştəri, Əbülfət xan Tuti, Ağahüseyn Arif, Sabit Şəqaqi, Ağabağır, Kərim ağa Fateh, İbrahim Nicati, Ələkbər Qafil, Ağababa Zuhuri haqqında deyilənlər məhdud; Rafei, Fədai, Molla Qasım Şirvani, Zulali, Şəkər Şirvani, Nabi Əfəndi Şirvani barədə məlumat bəsitdir. Tədqiqatçı onların doğum və ölüm ili, məkanı haqqında çox qısa informasiya, əsərlərindən bir nümunə verməklə kifayətlənir. Nəsimi, Asəf Şirvani, Arif Şirvaninin hərəsi haqqında bir, Mirzə Hüseyn Salar barədə üç cümlə vardır. Nəsimi və Arif Şirvaninin hər birinin əsərlərindən 5 beyt, Mirzə Hüseyn Saların bir, Arif Şirvaninin iki qəzəli verilmişdir ki, bu faktlar Firidun Bəy Köçərlinin Şərq təzkirəçilik ənənələrindən və "Azərbaycan ədəbiyyatı" kitabının təzkirə xüsusiyyətlərindən hələ tam azad olmadığını göstərir. Amma Firidun Bəy Köçərli 130-a qədər şair və yazıçı haqqında (onlardan 111-nin adı oçerkin, yaxud məlumatın sərlövhəsinə çıxarılmışdı) yazmaqla Azərbaycan ədəbiyyatının varlığını, onun tarixi qədimliyini və bədii-estetik qüdrətini inkar edənlərə tutarlı cavab verirdi. Lakin kitabda Azərbaycan ədəbiyyatının islamaqədərki və XIII-XVII əsrlər dövrü tədqiqatdan kənarda qalmışdı. Mənbələrin azlığına görə İ.Həsənoğlu, Q.Burhanəddin, Həqiqi, Xətai və Əmanidən söz açılmırdı. Firidun Bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixini dügün elmi-metodoloji prinsiplər əsasında yazmışdı. Kitabın "Başlanğıc" hissəsində o, söz sənətini – ədəbiyyatı "hər bir millətin şən və əzəmətinə, tərəqqi və səadətinə bais olan səbəblərdən birisi", millətin "maddi və səadət yollarını göstərən aineyi-həqiqətnüması" kimi qiymətləndirir, şair və yazıçıları "milləti haqq və səvaba irşad edən, şöhrət və hörmətə yetirən", "millətin cisminə şəfa, ruhuna səfa, fikrinə cila, ağlına və təmami mənəvi və ruhani qüvvələrinə balu pər verib uca məqama qaldıran" maarif xadimləri hesab edir, Azərbaycan ədəbiyyatının tarixi qədimliyini və estetik zənginliyini onu yaradan xalqın bədii-fəlsəfi dühası, təbii istedadı, fitri qabiliyyəti, azadlıq ruhu ilə əlaqələndirirdi. Firidun Bəy Köçərliyə görə "nə qədər bir qövm və tayfa elmsiz və mərifətsiz olsa, bir o qədər onun ədəbiyyatı zəif və biməzmun olacaqdır. Hətta çox tayfalar vardır ki... ədəbiyyat nə olduğunu bilməzlər... Bunlar dünya üzündə çox müddət yaşamayıb puç və zay olurlar. Tərəqqi və səadət fikrində olan və əbədi zindəganlıq arzusuna düşən qövm və millət gərəkdir ən əvvəl öz ana dilinin vüsət və qüvvət tapmağına səy və himmət göstərsin və ədəbiyyati-milliyyəsini asari-nəfisə və təsnifati-məmduhə ilə zənginləşdirsin". (8, s.70-71) "Qələmi ədəbiyyat isə başqa tərz ilə hüsula gəlir. Bunda hər bir nağıl və hekayənin məxsusi katibi və munşisi və hər bir təsnifin öz müsənnifi və hər bir şeir və qəzəlin müəyyən şairi vardır. Əlbəttə, bu qisim əsərlərdə milliyyət nişanəsi və milliyyət rayihəsi cəndan müşahidə olunmaz. Vəli bir müsənnif və şair nə qədər öz millətinə yavuq olsa, onun adət və xasiyyətləri üzrə nəşvu nüma tapsa, milliyyət qanı onun damarlarında nə qədər artıq cərəyan etsə, bir o qədər onun əsərlərində dəxi milliyyət qoxusu və milliyyət nişanəsi artıq görünəcəkdir".(8, s.77) "Azərbaycan ədəbiyyatı" kitabının quruluşu sübut edir ki, onun müəllifi ədəbiyyat tarixinin yazılmasına elmi-nəzəri və metodoloji baxımdan düzgün yanaşmış, əsərinin "Başlanğıc" hissəsində şifahi ədəbiyyatın müxtəlif janrları: nağıl, tapmaca, məsəl, nəğmə və s. barədə söhbət açmaqla, əslində, ədəbiyyat tarixi yaratmağın elmi yolunu göstərmişdir. "Azərbaycan ədəbiyyatı" kitabı coğrafi bölgü üzrə yazılmış və şairlər kitabın "Gəncə", "Şirvan və Şamaxı", "Qarabağ – Şuşa şəhəri", "Quba", "İrəvan şairləri", "Dərbənd şairləri" bölmələrində qruplaşdırılmışdır. M.Füzuli bu regionların heç birinə daxil edilmir. Məsələnin görünən səbəbi odur ki, doğrudan da adı çəkilən yerlərin heç birinə Füzulinin aidiyyəti yoxdur: ərazi baxımından o, tamam başqa bir ədəbi-mədəni və elmi mühitin yetirməsidir. Firidun Bəy Köçərliyə görə, Azərbaycan türkləri "Zaqafqaziyanın Şərq və Cənubunda sukna edən Şəki, Şirvan, Səlyan, Bakı, Gəncə, Qazax, Qarabağ, İrəvan və Naxçıvan əhalisindən və İran dövlətinin şimali-şərqisində güzəran edən əqvam və təvayifdən ibarətdir". Füzuli isə təkcə Azərbaycan, yaxud təkcə Osmanlı şairi deyil, ümumiyyətlə, türk şairidir, bütün "türk şairlərinin babası hesab olunur" və "Azərbaycan şuərasına hamıdan artıq təsiri olubdur". (8, s.84)

Kitab elmi-nəzəri təhlillərlə bərabər bədii nümunələrlə də zəngindir. Onun səhifələrində yer alan şeirlər yüksək sənət örnəkləridir. Bu keyfiyyətinə görə "Azərbaycan ədəbiyyatı" müasir ədəbiyyat-müntəxabat dərsliklərini xatırladır; müəllif əvvəlcə şairin tərcümeyi-halından danışır, yaradıcılığının əsas istiqamətlərini aydınlaşdırır, faktlara söykənməklə fikirlərini əsaslandırır, sonra isə, məsələn, "Kəlami-Qövsi", "Qəzəli-Nicat", "Müəşşəri-Ağaməsih Şirvani", yaxud "Qəzəli-türki", "Əyzən kəlami-türki", "Əsərlərindən bir neçəsi burada zikr olunur" deyib şeir nümunələri təqdim edir.

Firidun Bəy Köçərliyə qədər XX əsrdə uşaq ədəbiyyatı haqqında bir sıra elmi-nəzəri fikir və mülahizələr yaransa da, bu sahədə sistemli tədqiqat onun adı ilə bağlıdır. Azərbaycan uşaq ədəbiyyatı XX əsrə qədər müstəqil bir yaradıcılıq sahəsi kimi deyil, əsasən, şifahi xalq yaradıcılığı və yazılı ədəbiyyatla əlaqəli şəkildə inkişaf etmişdir. (17, s.100)

Uzun əsrlərdən bəri ağızdan-ağıza, dildən-dilə keçən xalq ədəbiyyatı nümunələri qabaqcıl maarifpərvər ziyalını düşündürən əsas məsələlərdən biri olmuşdur. Xalq ədəbiyyatını xalqın sərmayəsi adlandıran Firidun Bəy Köçərli uşaqlar üçün yazılmış "Balalara hədiyyə" kitabının müqəddiməsində şifahi söz sənəti nümunələrinin toplanması əhəmiyyətindən bəhs edərək yazırdı: "Keçmişdə şan və şöhrət sahibi olan türk milləti öz məişətinə, ayin və adətinə aid yaratdığı qısım-qısım nağıl və hekayələr, gözəl mənzumə və bayatılar, hikmətamiz məsəllər (atalar sözü), nazik mənalı müəmma və tapmacalar, balalar qəlbi açan düzgülər və yanıltmaclar, heyvanat qismində məxsus "sayaçı sözlər" mürur əyyam ilə xatirələrdən çıxıbdır və bu halda unudulmaqdadır"(15, s.1-2). Firidun Bəy Köçərli qeyd edirdi ki, tarixi keçmişini, dilini, vətənini sevən inkişaf etmiş millətlər öz şifahi xalq ədəbiyyatı nümunələrini "...kamali-şövq və diqqətlə cəm edib ziqiymət sərmayə kimi saxlayır və balalarının ilk təlim və tərbiyəsini onları öyrətməklə başlayır" (15, s.2). Deməli, folklorun təlim-tərbiyə üçün əhəmiyyətini ilk plana çəkən Firidun Bəy Köçərli ziyalıların diqqətini bu işə cəlb etmək istəyirdi.

1912-ci ildəki ilk nəşrindən yüz ildən artıq bir müddət keçməsinə baxmayaraq, bu gün də aktuallığını qoruyan "Balalara hədiyyə" kitabının tərtibi və nəşrinin əsas məqsədlərindən biri şifahi xalq ədəbiyyatını gələcək nəsillərə ötürülməsi idi.

Pedaqoq "Balalara hədiyyə" kitabına uşaqların yaş xüsusiyyətlərinə uyğun, mövzu və forma etibarilə sadə, səmimi, tərbiyəvi əhəmiyyəti






olan nümunələr daxil etmişdir. Ona görə də həmin məcmuəni oxuyan "balalar şadlanacaq, bu səbəbə ki, onda dərc olunan əsərlərin cümləsi onların dünyasındadır, təbiətlərinin iqtizasına müvafiqdir". Göründüyü kimi, alim, pedaqoq, folklorçu, ədəbiyyatşünas Firidun Bəy Köçərli həmin kitabın tərtibatı işində nə qədər zəhmət çəkmişdir (4, s.148).

Firidun Bəy Köçərli kitaba yazdığı müqəddimədə həmin kitabın böyüklər üçün də mühüm əhəmiyyət daşıdığını göstərirdi: "Böyük adamların yürəklərinin açılmasına səbəb olacaqdır ki, onlar mütəaliyə əsasında öz uşaqlıq vaxtlarını bilaixtiyar xatirələrinə gətirəcəklər. Bu isə – qəlbi şad etmək üzlüyündə xidmətdir" (15, s.1).

Yazıçı "Balalara hədiyyə" kitabını tərtib edərkən mətnlərin məzmunu ilə uşaqların maraq dünyasının bir-birini tamamlamasına xüsusi diqqət yetirmiş və kitaba uşaqların yaş xüsusiyyətlərinə uyğun materiallar seçdiyindən, nümunələrin dilinin sadəliyinə xüsusi fikir vermişdir. Müəllim kimi bədii cəhətdən mükəmməl, dərin məzmunlu, dil-üslub cəhətdən sadə olan əsərlərin uşaqların təlim-tərbiyəsində oynadığı böyük rolunu 1912-ci ildə toplayıb çap etdirdiyi "Balalara hədiyyə" adlı kitabında nəzəri cəhətdən əsaslandırmışdır. Görkəmli tənqidçi Seyid Hüseyn "İqbal" qəzetinin 1913-cü il 23 may tarixli 366-cı nömrəsində "Balalara hədiyyə, yaxud "Qafqazda birinci kitab" adlı məqaləsində əsəri yüksək qiymətləndirir (5, 53). Bu əsərin nəşrini müsbət hadisə kimi qiymətləndirən S.Hüseyn yazırdı: "Balalara hədiyyə" kitabı cocuqların ruhuna azuqə verdiyi kimi, böyüklərimizin də cocuqluğunu və ondakı yaşayışını xatirinə gətirərək onlarda keçmişinə və millətinə qarşı bir istək və məhəbbət duyğusu ayıldır" (6).

1912-ci ilin may ayında İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsində çap olunmuş 102 səhifəlik "Balalara hədiyyə" kitabı iki hissədən ibarət olub, 75 kiçik həcmli didaktiki əsər özündə cəmləşdirmişdir. Müəllif yaş səviyyəsinə müvafiq olaraq birinci hissəyə 49, ikinci hissəyə 26 didaktik mənzum parça, nağıl, hekayə, tapmaca, atmaca, sayaçı sözlər və başqa təlim-tərbiyə üçün zəruri olan mətnlər salmışdır. Firidun Bəy Köçərlinin ölümündən sonra bu kitab 1967-ci ildə ədəbiyyatşünas Bəkir Nəbiyevin tərtibi və redaktorluğu ilə yenidən çap edilmişdir (1, s.172). Yazıçını uşaqların gələcəyi düşündürdüyündən A.Şaiqə ünvanladığı məktubda yazırdı: "Xırdaca uşaqlar üçün yazılan nağıl və hekayələr nə qədər asan və sadə olsa, nə qədər açıq dildə yazılsa və uşaqların fəhminə yaxın olsa, bir o qədər mənzurda olan məktəblər artıq dərəcədə hasilə gəlib yaxşı meyvələr gətirər" (22, s. 168).

Firidun Bəy Köçərli Xəstə Qasımın "Nəsihət" qoşmasını və ya sonrakı nəşrlərdə "Olmaz" adı ilə getmiş ustadnaməsini "Balalara hədiyyə" kitabına salmaqla xalqın müdrik sözlərini, istək və arzularını yeni nəslə çatdırmağı vacib sayır. Görkəmli ədib bu zaman Xəstə Qasımın həyat və cəmiyyət haqqındakı fəlsəfi düşüncələrinin, həmçinin müdrik kəlamlarının uşaqların başa düşəcəyi bir dildə yazıldığını nəzərə alır. Şeirdən göründüyü kimi, aşıq el arasında mövcud olan "Ağac bəslәgilən, barın yeyəsən", "Namərd yalançıya sirrin söyləmə", "Bivəfa dilbərdən sənə yar olmaz", "İgid odur tənə oxun atmasın, halal mayasına haram qatmasın" və s. bu kimi atalar sözləri və məsəllərdən istifadə etmiş, danışıq dili ilə ədəbi dil arasında əlaqə yaratmış, hər bir müdrik sözün mahiyyətini açmağa çalışmışdır (14, s.78 ).

Uzun müddət Azərbaycan məktəblərində bir dərslik kimi istifadə edilmiş bu kitabla Firidun Bəy Köçərli uşaq qəlbinin incəliklərinə yol tapmış, xalqımızın bu gözəl folklor örnəkləri ilə uşaqların dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

1920-ci il aprel çevrilişindən sonra may ayının əvvəllərində Firidun Bəy Köçərli Qazax İnqilab Komitəsi tərəfindən həbs edilib Gəncə Fövqəladə Komissiyasının sərəncamına göndərilir. Gəncə Fövqəladə Komissiyası Firidun Bəyi ölüm cəzasına məhkum etmiş və günahsız ədib 1920-ci il iyun ayının 5-də güllələnərək qətlə yetirilmişdir. Bununla da ADR-in təhsil siyasətini həyata keçirmək, xalqı maarifləndirmək uğrunda yorulmaq bilmədən gecə-gündüz çalışan ədib arzularına çatmır. Lakin Azərbaycan ziyalıları Firidun Bəy Köçərli yaradıcılığını öyrənir və onun ölümündən 5 il sonra, yəni 1925-ci ildə 2 cildlik "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərini ərəb əlifbasında çap etdirirlər. 2 cildlik əsərin növbəti nəşri 1926-cı ildə "Azərnəşr"də yenidən ərəb əlifbası ilə nəşr edilir. (9,10,11,12)

1963-cü ildə Kamal Talıbzadənin redaktəsi ilə Firidun Bəy Köçərlinin seçilmiş əsərləri Azərbaycan SSR Nəşriyyatında nəşr olunur. (13) Kamal Talıbzadə tərəfindən müqəddimə yazılmış kitabda İrəvandan məktub; Azərbaycan komediyaları; Azərbaycan ədəbiyyatı; Hörmətli "Şərqi rus" ruznaməsinə bir neçə sözlər; Müsəlman müəllimlərinin hümməti; Anton Çexov; Təzə kitab; Ədəbiyyatımıza dair məktub; Qarabağda Cavanşir mahalının əhval və ovzasına dair; Taybuynuz öküz; "Molla Nəsrəddin"; İdarəyə məktub; İranın oyanması; Ədəbiyyatımıza dair; "Usta Zeynal"; Azərbaycan dövri mətbuatının qısa icmalı; Vaqif və Vidadi və bunların dostluğu; Həsənbəy Məlikov; Qazax şairi Kazım ağa Salik təxəllüsü barəsində bir para məlumat; Məişətimizə dair; Milli bayram; Gürcü şairi Akaki Sereteli yubileyinə dair; Nikolay Vasilyevic Qoqol; Dünyada bəla nədən törəyir?; Həqiqi gözəllik və hərəkətsiz nisfimiz; Köçərilərin övza və əhvalı; "Vətən dili" dərsliyi haqqında cənab Şirvanskinin rəyi münasibətilə; Mirzə Fətəli Axundov; Sabir haqqında; Vəfati-şair; Həyata dəvət; Redaksiyaya məktub; Yakov Semyonoviş Qoqebaşvili; Soltan Məcid Qənizadə; Ana dili; Dost və müəllim H.O.Lomourinin xatirəsi; Qeydlər; Lüğət; Mündəricat; Portret var.

1967-ci ildə Bəkir Nəbiyevin redaktorluğu ilə yazıçının "Balalara hədiyyə" kitabı çap edilmişdir. Kitabın növbəti nəşrləri 1972-ci ildə "Gənclik" nəşriyyatında, 1985, 1987 və 2013-cü illərdə çapdan çıxmışdır.

Görkəmli Azərbaycan yazıçısı Firidun Bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərinin yeni nəşrləri yazıçının ölümündən sonra 1978 və 1981-ci illərdə və 2005-ci ildə 2 cilddə işıq üzü görmüşdür. 1992-ci ildə "XIX əsr Azərbaycan ədəbiyyatı müntəxəbatı" çapdan çıxmışdır.

Görkəmli maarifçi, ədəbiyyatşünas-tənqidçi Firidun Bəy Köçərlinin mədəniyyət tariximizdə unudulmaz xidmətləri yüksək qiymətləndirilərək 150 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanmışdır. Bu o deməkdir ki, ömrünü xalqının gələcəyi naminə qurban verən saf əqidəli ziyalının əməlləri örnək olaraq daim xatırlanacaq.❖

**Ədəbiyyat:**

1. Bəktaşi İ. Firidun bəy Köçərlinin yaradıcılıq yolu. Bakı: "Yazıçı", 1986, 184 s .
2. Cəlal M. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982, 426 s.
3. Çəmənzəminli Y.V. Qulluq və əsirlik //Firidun bəy Köçərlinin şəxsi arxivi. Bakı, "Nurlan", 2005., 280 s.
4. Əfəndiyev P. Azərbaycan folklorşünaslığının tarixi. Bakı: ADPU, 2006, 475 s.
5. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: "Elm və təhsil", 2012, 600 s.
6. Hüseyn S. Balalara hədiyyə, yaxud Qafqazda birinci kitab // "İqbal" qəzeti, Bakı, 1913, № 366
7. Köçərli F. Əsərləri. Bakı, "Elm və təhsil", 2013, 496 s.
8. Köçərli F. Azərbaycan ədəbiyyatı: 2 cilddə.Bakı: Elm, 1978.C.I., 599 s.
9. Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları. Bakı: "Azərnəşr", 1925, C.I.h.I.- 276 s. Ərəb əlifbasında.
10. Köçərli F.B. Azərbaycan ədəbiyyatı tarixi materialları /Firidun bəy Köçərli. Bakı: Azərnəşr, 1925.- C.I. h.II.- 345 s. Ərəb əlifbasında.
11. Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları. Bakı: Azərnəşr, 1926, C.II. h.I.-278 s. Ərəb əlifbasında.
12. Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları. Bakı: Azərnəşr, 1926, C.II. h.II. 283 s. Ərəb əlifbasında.
13. Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1963, 341 s.
14. Köçərli F. Balalara hədiyyə / Tərtib edəni və redaktoru B.Nəbiyev. Bakı: Gənclik, 1967,88 s.
15. Köçərli F. Balalara hədiyyə (Milli nağıl, məsəl, tapmaca, bilməcə və növbənöv mənzumələr məcmüəsi). Bakı: Kaspi mətbəəsi, 1912, 101 s.
16. Köçərli F. Mirzə Fətəli Axundov həzrətlərinin təvəllüdündən yüz il mürur etmək münasibəti ilə yazılmış risalei-yadigaranədir. Firidun bəy Köçərlinin şəxsi arxivi. Bakı, "Nurlan", 2005., 280 s.
17. Məmmədov M."Firidun bəy Köçərlinin "Balalara hədiyyə" kitabı uşaq folklorunun mükəmməl nümunəsi kimi//Folklorşünaslıq məsələləri, s.100-108.
18. Nəbiyev B. Firidun bəy Köçərli, Bakı, 1963, 164 s.
19. Qasımov C. Firidun bəy Köçərlinin müəmmalı ölümü //AMEA-nın Xəbərləri. Humanitar Elmlər Seriyası. Xüsusi buraxılış. 2013, №1, S.90-99.
20. Talıbzadə K. XX əsr Azərbaycan ədəbi tənqidi. Bakı: "Elm", 1966, 451 s.
22. Talıbzadə K. Firidun bəy Köçərlinin A.Şaiqə məktubları // "Azərbaycan" jurnalı, Bakı, 1967, № 6, s. 167-174.

**Резюме**
В статье рассматриваются исторические этапы публикации наследия Ф.Б. Кочарли. Исследование проводилось в соответствии с датой публикации каждой работы писателя.
**Ключевые слова:** наследие Ф.Б. Кочарли, этап, публикация, статья, письмо.

**Summary**
The article discusses the historical stages of publishing the heritage of FB Kocharli The study was conducted in accordance with the date of publication of each work of the writer.
**Key words:** F.B. Kocharli's heritage , stage, publication, article, letter.